فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال دوم ، شماره ششم ، زمستان ۱۴۰۳
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 02, issue 06, Winter 2025
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 02, nömrə 06, Qiş 2025
Üç Aylık "Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar" Uzmanlık Dergi, yıl 02, sayı 06, Kış 2025

# روحانیت آذربایجان در دوره مشروطه

**علی فرهاد اوو**

**ایمیل:**

Ali_farhadov@yahoo.com

**وابستگی:**

دکتر. تاریخ شناس آذربایجان

**چکیده:**

انقلاب مشروطه به عنوان اعتراض مردمی علیه رژیم شاه در ایران در بین سال های ۱۹۰۵-۱۹۱۱ آغاز شد. این انقلاب خواستار مشروطه و نظام پارلمانی در ایران بود و تا حدی به پیروزی رسید. روحانیون مترقی آذربایجان نقش مهمی در این پیروزی داشتند. شیخ محمد خیابانی نیز به عنوان یک روحانی برجسته و انقلابی این سنت انقلابی را ادامه داد.

**کلمات کلیدی :** آذربایجان ایران، مشروطه، روحانی ها

## استناد (آپا):

فرهادوو، ع. روحانیت آذربایجان در دوره مشروطه. ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۲، شماره ۰۶، زمستان ۱۴۰۳. ۸۶۹۰-۳۰۴۱ شاپا

**Ali Farhadov**

**Email:**

Ali_farhadov@yahoo.com

**Affiliation:**

PhD., The National History Museum of Azerbaijan

# Azerbaijani clergy in the constitutional period

**Abstract:**

Constitutional revolution 1905-1911 originated as a popular protest against the Shah's regime in Iran. This revolution began in Iran at the request of the constitutional and parliamentary system and was partially won. The progressive clergy of Azerbaijan played an important role in this victory. Sheikh Mohammad Khiyabani also continued this revolutionary tradition as a prominent cleric and revolutionary.

**Key words:** Iran, Azerbaijan, Constitution, Clergy

**CITATION (APA):**

Farhadov, A. Azerbaijani clergy in the constitutional period. Urmia: "Studies on Azerbaijan and Turk's history" Specialized Journal, year 02, number 06, winter 2025, ISSN: 3041-8690.

**Əli Fərhadov**

**Email:**

Ali_farhadov@yahoo.com

**Mənsubiyyət:**

Dr., Milli Azərbaycan Tarixi Muzeyi

# Məşrutə dövründə Azərbaycan ruhaniləri

**Xülasə:**

1905-1911-ci illər məşrutə inqilabı İranda şah rejiminə qarşı xalqın etirazı olaraq ortaya çıxdı. Bu inqilab İranda konstitusiya və parlament sisteminin tələbi ilə başladı və qismən qələbə çaldı. Bu qələbədə İran Azərbaycanı və mütərəqqi ruhanilər mühüm rol oynadılar. Şeyx Məhəmməd Xiyabani də görkəmli bir ruhani və inqilabçı olaraq bu inqilab ənənəsini davam etdirdi.

**Açar sözlər:** İran Azərbaycanı, məşrutə, ruhanilər

**CITATION (APA):**

Fərhadov, Ə. Məşrutə dövründə Azərbaycan ruhaniləri. Urmiya: "Azərbaycan və Türk tarixi araşdırmalar" İxtisaslaşdırılmış Jurnal, il 02, nömrə 06, qiş 2025, ISSN: 3041-8690.

**Ali Farhadov**

**Email:**

Ali_farhadov@yahoo.com

**Üyelik:**

Dr., Ulusal Azerbaycan Tarih Müzesi

## Meşrut döneminde Azerbaycan din adamları

**Özet:**

1905-1911 anayasal devrimi, İran'daki Şah rejimine karşı kamusal bir protesto olarak ortaya çıktı. Bu devrim İran'da anayasa ve parlamenter sistem talebiyle başladı ve kısmen kazandı. Bu zaferde İran Azerbaycanı ve ilerici din adamları önemli rol oynadı. Şeyh Muhammed Khiyabani de önde gelen bir din adamı ve devrimci olarak bu devrimci geleneği sürdürdü.

**Anahtar kelimeler:** İran Azerbaycanı, meşrute, din adamları

**CITATION (APA):**

Farhadov, A. Meşrut döneminde Azerbaycan din adamları. Urmiye: Üç Aylık “Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar” Uzmanlık Dergi, yıl 02, sayı 06, kış 2025, ISSN: 3041-8690.

**علی فرهاد اوو**

**ایمیل:**

Ali_farhadov@yahoo.com

**منسوبیت:**

دکتر. میللی آذربایجان چی تاریخی موزه یی

**عرب آلفابئسینه کوچورن:** ملیحه برقی صدقیانی

# مشروطه دوورونده آذربایجان روحانی لری

## چکیده:

۱۹۰۵- ۱۹۱۱ – جی ایل لر مشروطه انقلابی ایران دا شاه رژیمی نه قارشی خالقین اعتراضی اولاراق اورتایا چیخدی. بو انقلاب ایران دا کونیستوسیا وپارلامنت سیستمی نین طلبی ایله باشلادی و قیسماً غلبه چالدی. بو غلبه ده ایران آذربایجانی و مترقی روحانی لر مهم رل اویناديلار. شیخ محمد خیابانی ده گؤرکملی بیر روحانی و انقلابچی اولاراق بو انقلاب ان انه سینه دوام ائتدیردی.

**آچار سؤزلر :** ایران آذربایجانی، مشروطه، روحانی لر

## استناد (آپا):

فرهاد اوو، ع. مشروطه دوورونده آذربایجان روحانی لری. ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۲، شماره ۰۶، زمستان ۱۴۰۳. ۸۶۹۰-۳۰۴۱ شاپا

XIX əsrin sonunda Qacar İranındakı tənbəki üsyanı hakimiyyətdən narazı məzlum əhalinin dərdinə dərman olmadı. Nəsrəddin şahdan sonrakı Müzəffərəddin şah da Rusiyadan aldığı borclarla ölkəni ağır iqtisadi-siyasi duruma salmışdı. Qacar şahzadəsi, vəliəhd Məhəmmədəli Mirzə isə dua və dini rəvayətlər kitabları nəşr etdirib, özünü dindar kimi göstərsə də, əslində Rusiyapərəst idi, kazak paltarında şəkil çəkdirir, zalımlıqla, talançılıqla vaxt keçirirdi. Vəliəhdin əsas müşaviri isə rus dili müəllimi kimi yanında saxladığı Şapşal adlı rusiyalı yəhudi din adamı idi (26, 147; 24, s.178, 181).

Bu dövrdə Azərbaycan müctəhidi Hacı Mirzə Həsən ağa və İmam-cümə Hacı Mirzə Kərim ağa ali ruhanilər olmalarına baxmayaraq, onlar şahın və onun Azərbaycandakı nümayəndəsi vəliəhdin zülmünə və əsarətə qarşı xalqı müdafiə etmir, hətta özləri möhtəkirlikdən faydalanırdılar (24, s.171-173). İrandakı müsəlmanların aclıq səbəbilə xaricilərə qul olduğunu yazan və bu kimi ictimai problemlərə göz yuman mürtəce müctəhidləri qınayan "Molla Nəsrəddin" belə yazırdı: "Müctəhid Hacı Mirzə Həsən ağa dəyirmanın sularını kəsib və əhali acından ölür" (23, s.2-3; 29, s.299); "Müctəhidin gözünün qabağında minlərcə müsəlman övrət-uşaqları əcnəbilərin evində əsir-yesirdirlər" (3, s.2; 29, s.288).

۱۹۰۳-cü ilin iyun-iyul aylarında qeyri-müsəlmanların sərxoş olub küçədə din xadimlərinə sataşması Təbrizdə yeni qığılcım yaratdı. Müctəhid Mirzə Həsən ağanın rəhbərliyi ilə mədrəsə tələbələrinin və mollalarının nümayişi və etirazları nəticəsində (24, s.48) xaricilərin qaldığı və içki də satılan mehmanxanalar dağıdıldı. Xariciləri və içki içənləri müdafiə edən sədrəzəm Ətabəkin Azərbaycan mənşəli mərcii-təqlid Məhəmmədhəsən Mamaqani (1822-1905), ondan sonrakı mərcii-təqlid Axund Xorasani (ö. 1911) və s. müctəhidlər tərəfindən kafir və mürtəd, dövlət və millət düşməni elan edilməsi (26, s.32-33) nəticəsində 1903-cü il sentyabrın sonunda şah onu vəzifədən azad etdi və Eynüddövlə yenidən sədrəzəm oldu (24, s.47-51). Qeyd edək ki, görkəmli ictimai-siyasi xadim, ədib Məhəmməd Əli Tərbiyət (ö. 1940) "Danişməndani-Azərbaycan" əsərində qeyd edir ki, Məhəmmədhəsən Mamaqani (ö. h. 1323 (1905) Nəcəfdə görkəmli müctəhidlərdən biri olub, 8 cildlik "Büşrəl-vüsul ila əsraril-elmi-üsul" ("Üsul elmi sirlərinə çatmaq üçün xoş xəbər") və 16 cildlik "Kitabi-zərayiül-islam fi şərhi şərayiül-islam" ("İslam qanunlarını izah edən vasitələr haqqında kitab") əsərlərinin müəllifidir (37, s.24; 38, s.11). Görkəmli ruhani Axund Molla Xorasani də ömrü boyu məşrutəçiləri dəstəkləmiş, şahı yıxmaq üçün dəfələrlə Qafqaz və İran müsəlmanlarına müraciət etmişdi (1, s.185-186). Qafqazın Rusiya tərəfindən işğalını Qacarların günahı sayan Axund, Müzəffərəddin şaha yazdığı məktublarda da onu "dinsiz bədbəxt və din düşməni, vətən xaini" adlandırmış, xalqı

cihada çağırmışdı (40). Şah əleyhdarı olan Axund sonunda şübhəli bir şəkildə vəfat etmişdi (24, s.564).

Möhtəkirlərə qarşı mübarizə aparanlar içində şeyxilərin rəhbəri, məşrutə tərəfdarı Mirzə Əli Ağa Siqətülislam (1861-1911) xüsusilə fəal idi (24, s.182). Siqətülislam mütərəqqi ruhani olub, Nəcəf və Kərbəlada ali dini təhsil almış, fars və türk dillərində əsərlər yazmışdır. Onun ən məşhur əsəri "Miratül-kütüb" ("Kitabların güzgüsü") kitabıdır ki, burada görkəmli din alimləri haqqında geniş məlumat verilib. Məşrutə tərəfdarı olub Rusiya işğalına qarşı mübarizə apardığı üçün h.1330 (1911)-cu ildə Rusiya hərbçiləri tərəfindən Təbrizdə şəhid edilmişdi (37, s.317-318; 38, s.91-92).

Siqətülislam kimi mütərəqqi ruhanilərin varlığı dini ideyaların güclü olduğu İranda şah rejiminə yardım edən radikal ruhanilərin qələbə çalmasına mane olurdu. Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalında yazdığı kimi – "iranlıları hürriyyət yoluna sövq edən müctəhidlərin nüfuzudur" (18, s.17-21). Mütərəqqi ruhanilərin ölkədəki roluna diqqət ayıran M.Şahtaxtlı da yazırdı ki,  "Əgər İranda zorlu zorsuza, zalım məzluma istədiyinin hamısını edə bilmirsə, məhz üləmanın nüfuzunun qorxusundandır" (34; 35, s.173).

Bu dövrdə xalqın vəliəhddən və hökumətdən narazı olmasının bir səbəbi də 1905-ci ildə Qafqazda baş vermiş erməni-müsəlman davasında iranlıların da qətl edilməsi və hökumətin buna səssiz qalması oldu. Bu hadisə İran Azərbaycanında daha böyük əks-səda oyatdı. Çünki Qafqaza yaxın olub, bir çoxları da orda yaşayır və ya gəlib-gedirdilər (24, s.176-177). Qafqazdakı erməni-müsəlman davasının İran Azərbaycanına da sıçramasının qarşısı Təbrizin İmam-cüməsi Hacı Mirzə Kərim ağa tərəfindən alındı (24, s.177). Ə.Kəsrəvi Qafqazda baş verən erməni-müsəlman davasında görkəmli xeyriyyəçi H.Z.Tağıyevin sülh yaratma təşəbbüsünü xüsusi qeyd etmiş, İran ermənilərinin də sülhpərvər niyyətini göstərmişdir (26, s.146).

XX əsrin əvvəllərində yeni xalq hərəkatına səhnə oldu. Öncələri sadəcə zalım şaha etiraz şəklində olan etirazlar və xalq nümayişləri artıq 1905-ci ilin sonundan etibarən sistemləşməyə başladı. Təbrizdə də ruhanilər "İslamiyyə Əncüməni" yaradıb xaricilərin İrandakı ağalığına qarşı etiraz edirdilər. Onun əsas üzvləri - sonralar qatı məşrutə düşməni olan Mir Haşim (24, s.574), məşrutə tərəfdarı Mirzə Hüseyn Vaiz və s. idi (24, s.183; 26, s.152). Təəssüf ki, bu təşkilat daha sonra məşrutə düşməni ruhanilərin əsas qurumuna çevrildi.

Şahlıq rejiminə və mürtəce molla zülmünə qarşı olan bu kütləvi hərəkatlar, konstitusiya tələbi ilə nəticələndi və tarixə Məşrutə inqilabı (1905-1911) adı ilə daxil oldu. 1905-ci ildə başlayan

Məşrutə hərəkatı XX əsr İran və Azərbaycan tarixinin ən əhəmiyyətli hadisələrindən biri oldu. İnqilab iştirakçılarının əsas tələbi konstitusiyanın qəbul edilməsi, Milli Məclis çağırılması, xarici məmurların ölkədən qovulması və s. idi (30). Xalqın, o cümlədən mütərəqqi ruhanilərin şərəfli, intellektual və mədəni mübarizəsi 1906-cı ildə İranda parlamentin qurulması ilə nəticələndi.

Gömrüklərdən məsul olan Rusiyapərəst belçikalı J.Nouzun rəqs məclislərində ruhani paltarında istehza ilə şəkillər çəkdirməsi (4, s.23), müsəlmanları təhqir etməsi xalqın narazılığına səbəb olurdu. “Molla Nəsrəddin” jurnalı belə yazırdı: “İranın Culfa gömrükxanası kimindir? Niyə gömrükxananın rəisi xaricilərin bayramını tətil eləyir, amma müsəlmanların ən möhtərəm bayramında gömrükxana açıq olur? Nə rəis hambalların dilini bilir, nə hamballar rəisin” (21, s.6-7; 29, s.260).

Tehranda, şiələr tərəfindən müqəddəs ziyarətgah sayılan Əbdüləzim türbəsində (42, s.176) müctəhid Abdullah Bihbehani və Seyid Məhəmməd Təbətəbainin başçılığı ilə J.Nouzu və digər xarici məmurları istefaya dəvət edən etirazçılar toplaşdılar. Onların etirazları hökumət tərəfindən eşidilmir, Qəzvində və digər İran şəhərlərində məmurların zülmünə qarşı çıxan din xadimləri və türbələrdə etiraz üçün toplanan insanlar məmurlar tərəfindən döyülürdü. İranın borclandığı Rus bankının Tehranda qədim bir müsəlman qəbristanlığı və dağılmış mədrəsə binası üzərində yeni bina tikməsi müsəlman xalqı daha da narazı saldı. İranlı müctəhidlər – A.Bihbehani və S.M.Təbətəbai xalqı etiraza çağırdılar və bina etirazçılar tərəfindən dağıdıldı (10, s.56-57). Qeyd edək ki, məşrutə inqilabının sonrakı taleyində də bu iki müctəhid böyük rol oynadı. Təbətəbainin və Bihbehaninin 1905-ci ildə Tehranda yaratdıqları “Əncüməni-məxfi” (Gizli əncümən) XX əsrin əvvəlində şahlıq rejiminə qarşı yaranan ilk təşkilatlardan biri idi (19, s.431, 435).

Xalq artıq şahın ruhanilərin və xalqın gücü qarşısında geri çəkildiyini görürdü. Bir müddət sonra Tehran bazarında vali Əlaüddövlə tərəfindən qəndi guya baha satan tacirlərin döyülməsi güclü etiraz dalğasını başlatdı. A.Bihbehani və S.M.Təbətəbai kimi ruhanilərin rəhbərliyi ilə xalq artıq şah hökumətindən günahkar məmurların istefasını tələb edirdi. Etirazçılar Əbdüləzim türbəsinə sığındılar (24, s.82-88). Bu hadisə tarixi ədəbiyyatda “hicrəti-suğra” (kiçik köç) adlanır. 1905-ci ilin dekabrında baş verən bu hadisədə J.Nouzun istefasi istəndi, Milli Məclis və Ədalətxana quruluncaya qədər Tehrana dönməyəcəklərini elan etdilər (9, s.53). Bir ay davam edən etirazdan sonra qorxuya düşən Şah tələblərin yerinə yetiriləcəyi vədini verəndən sonra etirazçılar Əbdüləzim türbəsini tərk etdi. Şah da Tehran valisini istefaya

göndərdi (10, s.56-59) və İranın bütün şəhərlərində Ədalətxanaların qurulması haqqında 10 yanvar 1906-cı ildə fərman verdi (24, s.97; 19, s.435).

Əhməd Kəsrəvi qeyd edir ki, baş verən bu hadisələr Avropa mətbuatında da geniş əks-səda yaratdı. Din xadimlərinin dövlət üzərindəki qələbəsi ilə müstəbid hakimiyyətə son verildiyi, xalqa azadlıq verildiyi, Darülşura – Milli Məclis qurulacağı bildirilirdi (10, s.59; 24, s.101). Şahın fərmanına baxmayaraq, sədrəzəm Eynüddövlə Ədalətxananın qurulmasını gecikdirirdi, bu məqsədlə ordunu və hökumət üzvlərini də öz tərəfinə çəkmişdi. Bunu görən müctəhid Təbətəbai sədrəzəmə belə bir məktub göndərdi: "Mən bu ölkədə islama xidmət edirəm. Bu məmləkət və əhalini Rusiya, İngiltərə və Osmanlıya əsir etməyin. Məclisin təsisi və s. haqda Qurana and içməyiniz necə oldu? Mən bu yolda canımdan keçməyə hazıram" (24, s.108-110). M.Təbətəbai və A.Bihbehani məscidlərdə, xalqın qarşısında çıxış edir, ədalətxananın, məclisin əhəmiyyətindən danışır, xalqı mübarizəyə səsləyirdilər. Xalq arasında zalım hökumətə qarşı cihadı təbliğ edən vərəqələr paylanırdı. Qorxuya düşən sədrəzəm Eynüddövlə ölkədə komendant saatı tətbiq etdi. Baş verən izdihamlarda məscidlərə toplaşan etirazçılara atəş də açıldı və öldürülənlər də oldu (24, s.130). Ruhanilər vəziyyətin çıxılmazlığını görüb xalqı məscidləri tərk etməyi tövsiyə etdilər. A.Bihbehani, S.M.Təbətəbai və Şeyx Fəzlullah Nuri də şahın razılığı ilə Tehranı tərk edib Quma getdilər (24, s.135). Bu hadisə tarixi ədəbiyyatda "hicrəti-kübra" (böyük köç) adlanır (9, s.53).

A.Bihbehaninin İngiltərə səfirliyi ilə olan anlaşması sayəsində 500-dən çox çadırda on mindən çox etirazçı səfirliyin həyətinə sığındı və etirazçı ruhanilərin geri qayıtması, ədalətxananın açılması istəklərini yenilədilər və ilk dəfə məşrutə və parlament tələb etdilər (24, s.134-136; 140-142). Bu hadisədə mütərəqqi ruhanilərin rolunu qeyd edən M.Ə.Rəsulzadə "İran inqilabının başında ruhanilər var. İslamı abad edənlər də mollalar olacaq" (31, s.58) deyərək, onların xalq azadlıq hərəkatındakı fəaliyyətini alqışlayırdı.

Sədrəzəm Eynüddövlə isə xalqa məşrutə verilərsə, sonra respublika istəyəcəklər deyərək şahı qorxudurdu (24, s.138). Təbriz valisi, şahzadə Məhəmmədəli Mirzə sədrəzəm Eynüddövlənin onun vəliəhdliyindən qarşı olduğunu bildiyindən, şaha etirazçıları dəstəkləyən bir teleqram çəkdi. Həmçinin onun dəstəyi ilə Təbriz ruhaniləri –Azərbaycan müctəhidi Hacı Mirzə Həsən ağa, İmam-cümə Hacı Mirzə Kərim ağa (24, s.163) və s. şaha teleqram çəkdilər. Teleqramda şahdan Tehran ruhanilərinin istəklərinə əməl edilməsi və onların Qumdan geri qaytarılması arzu edilir, Milli Məclisin qurulmasını və istibdad və zülmün aradan qaldırılmasını istəyirdilər (24, s.143-145). Bu teleqramın sonunda sədrəzəm vəzifədən azad edildi və ruhanilər Qumdan

geri qaytarıldı. Lakin İngiltərə səfirliyinə sığınan 14 mindən çox etirazçı mütərəqqi ruhanilərin də dəstəyilə məşrutə tələbindən əl çəkmədi (24, s.142-143).

Tənbəki üsyanının memarı, məşhur müctəhid Mirzə Həsən Şirazinin tələbəsi olan Fəzlullah Nuri qatı şəriət tərəfdarı olub, özünün məşrutə əleyhindəki görüşlərini "Kitabu təzkirətül-qafil" və "İrşadül-cahil" əsərlərində geniş izah etmişdir (27, s.28). Onun rəhbərlik etdiyi radikal ruhanilər də məşrutə əvəzinə "məşruə" (şəriət), "Milli Məclis" əvəzinə "İslam məclisi" sözünü tələb edirdilər (41, s.355; 14, s.388-393).

Məşrutəçilərin təzyiqi sonucu şah 5 avqust 1906-cı il tarixində məşrutə fərmanını imzalamağa məcbur oldu (2, s.282). 9 sentyabr 1906-cı il tarixində isə Şura Məclisinin də təsis edilməsi haqqında fərmanı da təsdiq etməyə məcbur oldu (24, s.152). Beləliklə, İran parlamentli şahlıq ölkəsinə çevrildi. Beləliklə, məşrutə hərəkatına gedən proses Tehranda qələbə ilə nəticələndi.

Əhməd Kəsrəvi yazır ki, məşrutə hərəkatı Tehranda yarandı, lakin onun inkişafını Təbriz boynuna götürdü (24, s.156). İran paytaxtından sonra ən böyük şəhər Təbriz sayılırdı. Vəliəhd həmişə Təbrizdə otururdu. Uzaqlığına baxmayaraq Təbriz Tehranda baş verən hadisələrdən xəbərsiz qalmırdı. Həmçinin İran Azərbaycanının Qafqaza və Osmanlı ərazisinə yaxınlığı azərbaycanlıların ayıqlığına və hazırlığına çox kömək edirdi (24, s.157). Təbriz həm də mədəni mərkəzlərdən biri idi.

Vəliəhd Məhəmmədəli Mirzə Rusiyapərəst olduğundan orada çar əleyhinə inqilabi hərəkatın bir bənzərinin nəinki Təbrizdə, heç İranda təkrarlanmasını istəmirdi, hər şəkildə etirazları boğmağa çalışırdı. O, Tehrandakı məşrutə hərəkatını da sədrəzəm Eynüddövləni işdən çıxartdırmaq üçün müvəqqəti dəstəkləmişdi. Vəliəhdin dəstəyi ilə Təbriz ruhaniləri şaha teleqram çəkmiş, məşrutəni dəstəkləmiş, sədrəzəmə etirazlarını bildirmişdilər. Lakin vəliəhd öz arzusuna nail olandan sonra Təbriz ruhanilərini aldadaraq sakitləşdirdi (24, s.184-185). Tehranda əldə edilən azadlığı, yaradılan məclisin bir bənzərini Təbrizdə açıb, reallaşdırmağa çalışan xalq 1906-cı ilin sentyabrında kütləvi etiraz nümayişinə, mitinqlərə başladı (7, s.302). Etirazçıların səyi nəticəsində bazarlar bağlandı və sentyabrın 20-də 600 nəfərdən çox etirazçı konsulluğun həyətinə və onun yanındakı Səmsam xan məscidinə toplanıb bəstə oturdu (2, s.282). Müctəhid Hacı Mirzə Həsən ağa, İmam-cümə Hacı Mirzə Kərim ağa və digər böyük ruhanilər də etirazçılara qoşuldu. Burada fars və türk dillərində istibdada qarşı məşrutənin faydası haqda çıxışlar edilirdi. Sonunda etirazçılar şaha teleqram göndərdilər. On gün bazarlar bağlı qaldı. Camaat ancaq Səmsam xan məscidində və ingilis konsulluğunun həyətində toplanırdı (24, s.189). Mütləqiyyətə qarşı birləşən əhali öz aralarındakı məzhəb davasına da

son qoymuşdu. Kərimxanilərin rəhbəri Hacı Seyid Məhəmməd Qarabaği belə deyirdi: "İndi bütün kin-küdurət kənara qoyulmalı, iranlıların şadlıq və şöhrəti naminə çiyin-çiyinə addımlamalıyıq". Şeyxi və üsulilərin rəhbəri də onunla birlikdə bu ideyanı dəstəkləyirdilər. Məscidin axundu da çıxış edib farsca və türkcə məşrutəni dəstəkləyən çıxışlar etdi. Sarayın zülmündən, məzlum xalqın dərdlərindən danışıb xalqı ağlatdı (24, s.190, 192). Nəhayət bir ay sonra, vəliəhdin gizli etirazlarına baxmayaraq, şah hökuməti Təbrizdəki məşrutəçilərin də tələbini qəbul etdiyinə dair vəliəhdə teleqram göndərməyə məcbur qaldı (26, s.162-164). Şahın razılığı və Vəliəhdin fərmanı ilə məscidə sığınanlara ümumi əfv verilib, Təbrizdə Milli Şura Məclisinə deputat seçkilərinin keçirilməsinə icazə verildi, İngiltərənin Təbrizdəki konsulluğuna da bu haqda məlumat göndərildi (24, s.195-196; 2, s.282). Beləliklə, İran Azərbaycanı da arzusunda olduğu məşrutəyə qovuşmuş oldu. Müctəhid Hacı Mirzə Həsən ağadan, mollalardan, tacirlərdən ibarət Təbriz Əncüməni fəaliyyətə başladı. Əncümən həm də ədliyyə, təhlükəsizlik məsələlərinə də nəzarət edirdi (26, s.183).

İran Azərbaycanında 1906-cı ildə məşrutənin qələbəsindən sonra məşrutəçilər nizam-intizamı bərpa edib, dükan-bazarda ucuzluğa, ədalətə və sünni-şiə mübahisəsinə, təriqətlərarası ziddiyyətə, təbərraçıların lənətlərinə son qoymağa nail oldular. Bu mərhələdə məşrutəçilərə rəhbərliyi əsasən mütərəqqi din xadimləri edirdilər və əsas tələbləri də şəriətə düzgün əməl etmək idi (24, s.197-199). Lakin Əncümən məşrutənin ruhuna xəyanət edən radikal din xadimlərinə qarşı da mübarizə aparırdı. Bu istiqamətdə vəliəhdlə gizli danışıqlara gedib məşrutəçilərə xəyanət etdiyinə və Əncüməndə onun sirrini açan Mirzə Hüseyn Vaizi döydürtdüyünə görə pişnamaz-molla Mir Haşim Dəvəçi 1906-cı ilin oktyabrında Təbrizdən qovuldu (26, s.171). Qeyd edək ki, Mir Haşimin məşrutə əleyhindəki fəaliyyəti "Molla Nəsrəddin" jurnalında da öz əksini tapmışdı. Onun məşrutəçilərə qan uddurması və sonunda bu cinayətlərinin cəzasını çəkməsi M.Ə.Sabirin -

"Durma, götür qaç başını, Mir Haşım!
Yardımı Səttar başını, Mir Haşım!" (11, s.3)

şeiri ilə jurnalda işıqlandırılmışdı. Lakin Mir Haşim sonralar yenə Təbrizə qayıdıb şahın göstərişi ilə Təbrizdəki Rusiya vətəndaşlarına qarşı hücumlar təşkil etdirdi. Şahın məqsədi Rusiyanı Azərbaycan məşrutəçilərinə qarşı düşmənliyə sövq etmək idi (24, s.577).

Vəliəhd Təbriz Əncüməninin tələbi ilə özünü yalandan məşrutəçi kimi göstərən və möhtəkirlik edən İmam-cümə Hacı Mirzə Kərim ağanı vəzifədən və Təbrizdən qovmağa məcbur oldu, onun yerinə məscidin köhnə pişnamaz-mollası Mirzə Qafar ağa seçildi (24, s.206). Vəliəhd

Əncümənin bu hərəkətlərindən qeyzlənib onu bağlamaq istəsə də, xalqın etirazından qorxub geri addım atdı və Tehrana, müctəhid A.Bihbehaniyə məktub yazıb özünün məşrutiyyət tərəfdarı olduğunu bildirdi və ondan yardım istədi (24, s.200-201). Ə.Kəsrəvi qeyd edir ki, Azərbaycan xalqının şahlıq rejimi üzərində bu ilk qələbəsinin bütün İranda məşrutə hərəkatının inkişafı üçün əhəmiyyəti oldu, Tehranda seçkiyə prosesinə şübhə ilə baxanlar da məşrutəyə qoşuldular (24, s.200). İran Azərbaycanının şəhərlərində də vilayət əncümənləri yaradılmağa başlandı, öz nümayəndələrini də Təbriz Əncüməninə göndərməyə başladılar. Lakin bölgələrdə xalq Əncümənin demokratik ruhunu anlamır, onu şəriət məclisi zənn edirdi. Bəzən isə Ərdəbildə, Qəzvində olduğu kimi Heydəri və Neməti təriqətlərinin qarşıdurması, hətta qətl hadisələri vahid əncümən təşkilatlarının yaranmasına mane olurdu (26, s.195-196; 24, s.232-233).

Vəliəhd Məhəmmədəli Mirzənin məşrutəçilərə güzəştə getməsinin bir səbəbi də atası Müzəffərəddin şahın ağır xəstəliyi və şahzadələr arası vəliəhdlik mübarizəsi idi. Vəliəhdin məşrutəçilərlə ziddliyindən digər şahzadələr istifadə edir, sarayda və xalq arasında dedi-qodular yaradırdılar. Bu səbəbdən Məhəmmədəli Mirzə, müctəhid A.Bihbehaniyə də məktub yazaraq and içdi ki, o, dövlət və millətin inkişafını istəyir, Məclisə və məşrutəyə sadiqdir, bədxahları onu şərləmək istəyirlər (26, s.185-186). 30 dekabr 1906-cı il tarixində İran tarixində ilk dəfə Müzəffərəddin şah  və vəliəhd Məhəmmədəli Mirzə Məclisin hazırladığı Əsas qanuna - konstitusiyaya imza atdılar və İranın ilk konstitusiyası təsdiqlənmiş oldu (26, s.187-188; 20, s.513; 7, s.302).

Müzəffərəddin şahın uzun sürən xəstəlikdən vəfat etməsindən sonra  19 yanvar tarixində vəliəhd Məhəmmədəli Mirzə şah oldu (26, s.198, 201; 24, s.235-236, 239). Lakin o, atasının imzaladığı konstitusiyanı tanımaq istəmirdi. Şah seçildikdən sonra açıq-aşkar məşrutəyə, seçilmiş Məclisə qarşı mübarizə aparan Məhəmmədəli Mirzə öz işinə qarışılmasını, hesabat soruşulmasını xoşlamır, dövləti təkbaşına idarə etmək istəyirdi. O, məşrutə düşməni radikal ruhanilərlə də birləşmiş və belə fikir yayırdılar ki, guya məşrutə şəriətə ziddir (24, s.240-241). "Molla Nəsrəddin" jurnalı bu haqda belə yazırdı: "Qanuni-əsasinin təsdiq olunmağını tələb eləyəndə Məhəmmədəli şah həmişə cavab verir ki, müctəhidlər qoymurlar, çünki məşrutiyyət şəriətə zidddir" (15, s.5-6; 29, s.351-352). Lakin şah ancaq öz şəxsi mənfəətinə xidmət edən müctəhidlərin fitvalarını nümunə göstərirdi. Çünki yenə "Molla Nəsrəddin" jurnalının qeyd etdiyi kimi Kərbəla və Nəcəf müctəhidləri məşrutiyyət tərəfdarı olub, şahı buna dəvət edirdilər. Lakin radikal İran ruhaniləri deyirdilər ki, "Məşrutiyyət şeytan işidir" (15, s.5-6).

Tehrandan – Şura Məclisindən gələn şikayətlər üzərinə Təbrizdən mərkəzi hökumətə göndərilən teleqramlarda yazırdı: “Şuranın haqqı var bütün işlərdən xəbərdar olsun və yaxud onlara müdaxilə etsin, bir sıra işlərdən xəbərdar olmaması hansı səbəbdəndir?” (24, s.253). Həmçinin şahın məşrutəni qəbul etdiyi barədə yeni fərman verməsi, gömrüklərdən məsul olan belçikalı J.Nouzun və digər xarici məmurların istefası tələb olunur, nazirlərin məclisə hesabat vermələri tələb olunurdu (26, s.214-215). Teleqramın altında Təbriz müctəhidi Hacı Mirzə Həsən ağanın və s. ruhanilərin və tacirlərin də imzaları da var idi (24, s.254-256).

۱۹۰۷-ci ilin aprelində Təbrizdə baş verən bir hadisə radikal ruhanilərlə zəhmətkeş xalqı qarşı-qarşıya gətirdi (26, s.234, 239-241). Kəndlilərə zülm edən Təbriz valisi Nizamülmülkün adamlarını qoruyan Müctəhid Mirzə Həsən Ağaya qarşı Təbrizdə ilk silahlı üsyan baş verdi. Müctəhid mücahidlər tərəfindən şəhərdən qovuldu, onunla birlikdə digər şiə din xadimləri də şəhəri tərk etdilər. Ali din xadimləri içində təkcə şeyxilərin rəhbəri Siqətülislam məşrutəyə sonuna qədər sadiq qaldı. Bu son hadisə məşrutəçilərlə şiə din xadimləri arasındakı ziddiyyəti tamamilə böyütdü və məşrutəçilər arasında Avropapərəstlik artmaya başladı (24, s.184, 291-295). Bunun nəticəsində bəzi din xadimlərinin də məşrutəyə qarşı şübhəsi artdı, ikitirəlik gücləndi (24, s.310-311). Ancaq Nəcəfdən Axund Molla Kazım Xorasani, Hacı Şeyx Abdullah Mazandarani, Hacı Mirzə Hüseyn Tehrani, Seyid Məhəmməd Təbətəbai və Abdullah Bihbehani həqiqətən məşrutə tərəfdarı idilər. Onlara görə “İndiki dövrdə İmam Zaman qeybdə olduğundan, şəriətin ehkamı icra oluna bilmir, istər-istəməz zülmkar hakimlər qalib gəlir. Yaxşı olar ki, istibdadın və zülmün qarşısını almaq üçün qanunçuluq hökm sürsün. Ümmətin aqilləri – müsəlmanların başçıları məclisi bərpa edib orada məşvərət keçirsinlər”. Beləcə, onlar məşrutəni məşruədən ayırırdılar. Lakin icazə verməzdilər ki, şəriətin əleyhinə qanun yazılsın (26, s.286-287; 24, 338).

Təbrizdən qovulan Müctəhid Mirzə Həsən ağa açıq-aşkar məşrutəni pisləyir, məşrutə əvəzinə məşruə (şəriət) tələb edirdi. Şeyx Fəzlullah Nuri də artıq məşrutə yox, şəriət təbliğatı aparırdı (24, s.338-339). O, məşrutəçilərin Milli Şura Məclisində səs verməsi keçirilən konstitusiyaya əqidə azadlığı maddəsini salmağa çalışmalarını da islama vurulan zərbə adlandırır, buna imkan verməyəcəyini deyirdi. Həmçinin Təbriz müctəhidi Hacı Mirzə Həsən ağanın məşrutəçilər tərəfindən qovulmasını da onların islam düşmənliyinə işarə sayırdı (24, s.346-347). Mövzunu işıqlandıran “Molla Nəsrəddin” jurnalı belə yazırdı: “Yazıq Hacı Mirzə Həsən ağa, niyə səni qatır üstə mindirib Təbrizdən çıxarıb qovdular? Sənin günahın nə idi, sən nə deyirdin ki? Sən deyirdin ki, “bu məşrutəçilər yoldan çıxıblar” (39, s.2-3; 29, s.161); “Hacı Mirzə Həsən ağa

bircə dəfə mücahidlər barəsində narazılıq izhar etmək ilə təbrizlilər onu şəhərdən kənar elədilər" (13, s.6; 29, s.172). Jurnal digər mürtəce mollaların da eyni fikirdə olduğunu göstərirdi: "Hələ Şeyx Fəzlullah və Hacı Mirzə Həsən qalsınlar kənarda: məşrutiyyəti xilafi-şəriət hesab eləyən müctəhidlərin qədəri gün-gündən artmaqdadır. Müctəhidlər şaha ərizə veriblər ki, qanuni-əsasi verməsin. Məşrutəçiləri kafir deyə elan ediblər" (15, s.5-6; 29, s.351). Bu son məsələdə Abdullah Bihbehani və Seyid Məhəmməd Təbətəbai də müctəhid Mirzə Həsənin Təbrizə geri dönməsini istəyirdilər, çünki o, Tehranda və Qumda özünün qovulmasını məşrutəçilərin dinsizliyinə nümunə göstərirdi (24, s.351-352). Sarayın müttəfiqi olan Şeyx Fəzlullah Nuri də müctəhid Mirzə Həsən ağa ilə dostluq edir, məşrutəçilərə qarşı onu dəstəkləyirdi. Məşrutəçiləri qoruyan ancaq müctəhid S.M.Təbətəbai, A.Bihbehani, Axund Xorasani və Axund Mazandarani idi (24, s.423-425). Bu kimi mütərəqqi ruhanilərin fəaliyyətini qeyd edən, lakin yetərli olmadığını bildirən Ə.Hüseynzadə yazırdı ki, "Fazili-şəhir (məşhur fəzilətli-Ə.F.) Təbətəbai həzrətləri ümum islamiyyətin dəvası üçün çalışır. Görür ki, vətəni-din, şərəfi-milliyyəmiz təhlükədədir. Lakin bir əldən səs çıxmaz" (17, s.4; 19, s.209).

Ə.Kəsrəvi göstərirdi ki, məşrutə əleyhdarı ruhanilər bütün azadlıq tərəfdarlarını babi, bəhai adlandırır, onların islam düşməni olduqlarını vurğulamağa cəhd edirdilər (24, s.341-342). Şeyx Fəzlullah Nuri parlamentdə qanunların qəbulunda ruhanilərin təkliflərinin nəzərə alınmasını və bu məqsədlə ayrıca nəzarətçi fəqihlər orqanının yaradılmasını tələb edir, buna etiraz edən azərbaycanlı deputatlara dinsiz deyirdilər. Lakin S.H.Tağızadə başda olmaqla Azərbaycan deputatları – "Biz məşrutə tələb edirik, məşruə (şəriət) yox" (19, s.415) deyə buna etiraz edirdi. Sonunda ali ruhanilərin seçdiyi beş nəfər müctəhiddən ibarət parlamentə nəzarət orqanının yaradılması qərara alındı (24, s.438-442).

Şeyx Fəzlullahın bu qələbəsinə baxmayaraq, o, şah hökumətinin dəstəyilə məşrutəni sonuna qədər ləğv etmək istəyirdi. Şeyx Fəzlullah Nurinin rəhbərliyi ilə hazırlanan bəyannamədə məşrutəçiləri babiliyə meyillikdə, qeyri-müsəlmanlarla müsəlmanların bərabərliyini tələb etməkdə, şəriətə qarşı firəng qanunlarını tətbiq etmək istəməkdə günahlandırdılar. Həmçinin onlara qarşı şəriətin babi və dinsizlərə qarşı hökmünü (qətl-Ə.F.) tətbiq etməyi tələb edirdilər (24, s.482, 488-495, 509-510). Şeyx Fəzlullah da bütün məşrutəçilərin qətl edilməsi haqqında fitva vermişdi (33, s.417). Məscidlərdə vaizlər məşrutəçilərin avropapərəst, şəriəti ləğv etmək istəyən kafirlər olması haqqında moizələr oxunmağa başlandı. Məşrutəçilərə qarşı təzyiqlər, təhdidlər, fiziki zorakılıq halları da edildi. S.M.Təbətəbainin və A.Bihbehaninin şeyx Fəzlullahla görüşməsi də nəticəsiz qaldı, sonda Şura Məclisi Fəzlullah Nurinin məşrutəyə

düşmən olub saraydan aldığı rüşvətlərlə onların cinayətkar əməllərinə ortaq olduğu, Əbdüləzim türbəsində oturan Şeyx Fəzlullah tərəfdarlarının da xalq düşməni olduğu elan edildi (24, s.444-447).

Bu dövrdə Ərdəbildə neməti-heydəri qarşıdurmaları, Zəncanda, Qəzvində Şeyx Fəzlullah tərəfdarlarının məşrutəçilərə qarşı hücum və qətl hadisələri baş verirdi (24, s.469-475). Belə bir şəraitdə Nəcəf ruhaniləri ölkədəki nizam-intizamı bərpa etməyən, məşrutəyə qarşı düşmənçilik edən, konstitusiyaya əlavələrin qəbulunu gecikdirən sədrəzəm Ətabəki küfrlə ittiham etdi (26, s.438). Xoy Əncüməni də sədrəzəm Ətabəki "Xainüssultan" (xain sultan-Ə.F.) elan etmiş, istefa etməzsə, öldürəcəklərini bildirmişdilər (24, s.519, 528). Təbriz Əyalət Əncüməni hökumətin istefasını istəmişdi. 1907-ci il, 31 avqust tarixində (26, s.451; 24, s.529) Məclisin iclasından çıxan Ətabək təbrizli Abbas ağa tərəfindən küçədə qətl edildi. Sui-qəsdçi ələ keçməmək üçün özünü də öldürdü. Ə.Kəsrəvi qeyd edir ki, Ətabəkin qətli sarayda və İranın hakim dairələrində böyük qorxu yaratdı, məşrutə düşmənlərinin sui-qəsdlər hazırlanmasından tədirgin olub zahirən məşrutəçi kimi özlərini göstərməyə başladılar (24, s.541). Nəticədə 7 oktyabr 1907-ci il tarixində Məhəmmədəli şah Şura Məclisinin konstitusiyaya əlavələrini təsdiq etdi və məşrutəçilərin demokratik islahatlar arzusunu yerinə yetirməyə məcbur oldu (26, s.465-467; 20, s.513; 7, s.303). dinindən asılı olmayaraq bütün iranlıların qanun qarşısındakı bərabərliyi təsdiq olundu, sünni, xristian, yəhudi və zərdüştilərin haqları artırıldı, lakin burada yeganə istisna babilər və bəhailər oldu. Həmçinin əyalət əncümənlərinin idarəetmədəki hüquqları tanındı. Konstitusiyaya mütərəqqi əlavələrin qəbulunda, dini məhkəmələrə qarşı dünyəvi məhkəmələrin səlahiyyətlərinin qismən artırılmasında və qanun qarşısında bütün vətəndaşların bərabərliyinin təmin olunmasında S.H.Tağızadənin başçılıq etdiyi Azərbaycan deputatları xüsusi rol oynadılar (36, s.110).

28 fevral 1908-ci il tarixində şaha qarşı sui-qəsd təşkil olundu (26, s.542). Faytonla saraydan çıxıb gedən şaha qumbara atıldı. Bir neçə nəfər yaralanıb ölsə də, şaha bir zərər gəlmədi. Sui-qəsdçilər tapılmasa da, sonradan bunun da məşrutəçi Heydər Əmoğlunun işi olduğu məlum oldu (26, s.543). Bu hadisə şahın məşrutəçilərlə arasının yenidən açılmasına səbəb oldu (24, s.631-633).

Şaha sui-qəsddən sonra onun əmri ilə Rəhim xan Təbriz məşrutəçilərinə qarşı mübarizəyə başladı (24, s.643-646). Müctəhid Mirzə Həsən ağa və İmam-cümə Mirzə Kərim ağa da Məclisin razılığı ilə 1908-ci ilin mayında Təbrizə döndülər (26, s.559). Bu ruhanilərin gəlməsiylə Təbrizdə məşrutə əleyhdarlarının gücü daha da artdı (24, s.647-649). Şahın əmri ilə

Təbriz müctəhidi Mirzə Həsən ağa məşrutəçilərin dinsiz olması haqqında Tehrana teleqram göndərdi və hər yerdə yaymağa başladılar. Şah da Məclisin qanunazidd olması və etiraz edənlərin cəzalandırılacağı haqqında fərman verdi (24, s.720-721). Seyid Həsən Tağızadə tərəfindən Təbrizə göndərilən teleqramda isə şahın məşrutəyə xəyanət etdiyi, Şura Məclisinin şaha son xəbərdarlıq etdiyi, Təbriz mücahidlərinin Tehrana yardım üçün gəlməsini gözlədikləri qeyd olunmuşdu. Təbrizlilər isə Tehrana ordu göndərəcəkləri təqdirdə Təbrizin məşrutə düşmənlərinin əlinə keçəcəyindən ehtiyat edirdilər (24, s.723-725). Həqiqətən də, Müctəhid Mirzə Həsən ağa, İmam-cümə Mirzə Kərim ağa, Mir Haşim və tərəfdarları məşrutəçilərə qarşı plan hazırlığı içində idilər. Müctəhid Mirzə Həsən ağanın evində məşrutə düşmənlərinin toplantısı keçirilirdi (26, s.626). Onlar məşrutəni devirmək istəyən şaha kömək edilməsi haqqında çıxış edib bu haqda şaha dəstək teleqramı çəkdilər. Şah teleqramı yüksək qiymətləndirib çap edilərək Tehranda yayılmasına əmr verdi (24, s.723-725).

23 iyun 1908-ci il tarixində səhər çağı (26, s.631; 20, s.513) şahın əmri ilə Liyaxovun komandanlığı ilə kazak briqadası Məclisi mühasirəyə alıb hücumla dağıtdılar (24, s.732-738). Onlara müqavimət edən mücahidlər də kazakların əli ilə vəhşicəsinə qətl edildilər (24, s.738-743). Demək olar ki, Tehranla eyni vaxtda Təbrizdə də şahın Təbrizdəki Molla Mir Haşimə və Müctəhid Mirzə Həsən ağaya göndərdiyi teleqram ilə şəhərin cənub məhəllələrində məskunlaşan məşrutəçilərə qarşı hökumət qüvvələri döyüşü başlatmışdı. Şah Mir Haşimə göndərdiyi teleqramda inqilabçıları həbs edib, məşrutəçilərin ruhani liderləri – A.Bihbehanini Kərbəlaya, S.M.Təbətəbaini Xorasana sürgün etdiyi yazır və belə deyirdi: "Bütün pozğunlar həbs olunubdur. Siz də pozğunları məhv etməklə məşğul olun. Nə yardım istəsəniz, hazıram" (24, s.777; 19, s.411). Mir Haşimin mənsub olduğu Təbrizin Dəvəçi məhəlləsi radikal ruhanilərin və şahpərəstlərin əsas silahlı qiyam mərkəzi idi (9, s.132). "Molla Nəsrəddin" jurnalı da Mir Haşimin məşrutəyə zidd cinayətkar fəaliyyətini - "Dəxi demə ki, İran İranındır. Xeyr! İran indi Təbrizdə Mir Haşimindir", deyərək ifadə etmişdi (21, s.6-7).

Ruhanilər məşrutəçiləri babi elan edib qanlarını da halal elan etmişdilər. Əyalət Əncüəninin üzvləri digər ölkələrin konsulluqlarına qaçıb sığınsalar da, mücahidlər, o cümlədən nücahidlərə rəhbərlik edən Səttarxan və Bağırxan döyüşü davam etdirirdilər (6, s.205; 24, s.779, 783). Türkiyə və Qafqazdakı məşrutə tərəfdarları da onlara yardım göndərirdilər.

Səttar xan, Kərbəlanı və Nəcəfi ziyarətə getmiş, görkəmli şiə ruhanisi, Müctəhid Mirzə Həsən Şirazi (v.1894) ilə görüşmüş, öncəki günahlarından tövbə etmişdi. O, Təbrizə qayıtdıqdan sonra şeyxilərə qoşulmuşdur (5, s.50-51). İranlı tədqiqatçı M.Bamdadın yazdığına görə,

Səttarxan görkəmli şeyxi müctəhidi və məşrutəçi Mirzə Əli Siqətülislamla birlikdə şeyxilərin Azərbaycandakı görkəmli nümayəndələrindən biri və Təbrizin Əmirxiz məhəlləsinin kəndxudası olmuşdur (16, s.386).

Şah Təbrizə nəzarəti gücləndirmək üçün qatı məşrutə düşməni Eynüddövləni Azərbaycan valisi təyin etdi (26, s.681). 1908-ci il, iyulun əvvəlində Eynüddövlənin əmri ilə Rəhim xan öz oğlu Böyükxanı süvari dəstəsi ilə birlikdə məşrutəçilərin üzərinə hücuma göndərdi (26, s.681). Lakin məşrutəçilər Böyükxanın ordusunu məğlub etdilər. Demək olar ki, bütün İranda ancaq Təbriz məşrutəçiləri şaha qarşı mübarizəni davam etdirə bilmişdilər. Rəhim xan özü ordu ilə Təbrizə gəlməyə məcbur oldu (26, s.683; 24, s. 783-786). 12 iyul 1908-ci il tarixində Şahın əmri və Müctəhidlə İmam-cümənin razılığı ilə Təbriz şəhərinin rəhbərliyi Rəhim xana tapşırıldı (26, s.686-687). Müctəhid və İmam-cümənin bu mövzuda yaydığı bəyannamədə Rəhim xan mədh edilərək, belə yazılmışdı: "Təbriz şəhərində pozğun adamlar üsyan etdiyi bir vaxtda iradəli bir şəxs lazımdır ki, bu kimi mühüm işlərin öhdəsindən gəlməyi öz üzərinə götürsün. Biz siz cənablarından ciddi tələb edirik ki, himmət edib pozğun adamların kökünü kəsəsiniz. Beləliklə, həm şahənşahın vasitəsilə sizin öhdənizə verilən işi yerinə yetirəsiniz, həm də müsəlman əhaliniz təhlükəsizliyini təmin edib Allahın yanında savab qazanıb, yüksək mərtəbəyə çatasınız" (24, s.787-789).

Əksinqilabi qüvvələr məşrutəçiləri məhv etmək üçün dini terminlərdən istifadə edir, kafir babi adı altında inqilabçılara, şah rejiminin əleyhdarlarına divan tuturdular (8, s.149). "Molla Nəsrəddin" jurnalı 1908-ci il Təbriz hadisələri ilə əlaqədar belə yazırdı: "Biz görürük ki, bütün Təbriz camaatı hücum çəkib məşrutəçilərin məhəllələrini dağıdıb, özlərinin qanını içirlər. Heç kəs deməsin ki, hücum çəkənlərin qəsdi padşahın düşmənlərini yox eləməkdir və köhnə idarəni geri qaytarmaqdır. Xeyr, Təbrizdə bir adam tapılmaz ki, buna razı olsun. Bəs bu nə qovğadır? Bir az işlərə diqqətlə baxsaq, görərik ki, burada bir belə hikmət var: Hacı Mirzə Həsən Təbriz meşələrində ot otlayan müsəlmanları inandırıb ki, məşrutiyyət istəyənlərin hamısı babidir. Dəxi qurtardı getdi. "Dədəm mənə kor deyib". "Al-gəldi, qırın bu babiləri!" Budur Təbriz davası! Və özgə çür də ola bilməzdi. Məsələn, mənə deyirlər ki, filankəs babidir; yəni mürtəddir. Mən də bilirəm ki, onun qətli vacibdir. Dəxi qurtardı getdi. Yoxsa bir də özümə zəhmət verib başlayım sual-cavabı ki, aya doğrudanmı filankəs babidir, yainki hürriyyəti-vicdan adına durum hələ bir az fikir də eləyim?" (3, s.2).

Nəcəf ruhaniləri Təbrizə dəstək məqsədilə "Məşrutəyə qarşı çıxmaq Yezidə itaət etmək kimidir. Məşrutəni bərqərar etmək cihad etməkdir. Təbrizlə müharibə aparmaq İmam Zamanla

(Mehdi) müharibə etmək kimidir" (26, s.729-730) deyə fitva vermişdilər. Səttar xanda dəfələrlə bildirmişdi ki, "Mən Nəcəf ruhanilərinin hökmünü icra edirəm" (26, s.730). Lakin İran ordusu şaha tabe olmağı seçmişdi (24, s.838-839). Ə.Kəsrəvi qeyd edir ki, məşrutəçiləri babi və ya dinsiz adlandıran radikal ruhanilərə qarşı Nəcəf ruhanilərinin fitvaları olmasaydı, məşrutəçilərə az adam kömək edərdi. Təbrizə yardım edənlər məhz bu fitvalara arxalanırdılar (26, s.730). Hər yerdə Səttarxan Sərdari-əzəm (böyük baş komandan) və Sərdari-milli, Bağırxan Salari-milli (Milli baş komandan) adlandırılır (26, s.771) və Səttar xanı Allahın Təbrizə göndərdiyi ilahi yardım sayırdılar (24, s.884).

İran Azərbaycanındakı Rusiya vətəndaşlarını qorumağı bəhanə edən rus ordusu 29 aprel 1909-cu ildə Təbrizi işğal etdi (26, s.906). Beləliklə, şah ordusuna qarşı layiqli mübarizə aparan Təbriz mücahidləri məğlub oldular. M.Ə.Rəsulzadə "İran türkləri" əsərində belə yazırdı: "Məhəmmədəli şah Azərbaycana düşmən tək yanaşdı, ancaq bu düşmənçiliyin meyvəsini tez gördü, konstitusiyaya qarşı çıxan bu dikbaş şah qarşısında yaraqlı Azərbaycanı buldu" (32, s.22).

